**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ТАХМИНА ЯСИН КЫЗЫ АЛИЕВА**

# РОЛЬ АРМЯНСКОГО ФАКТОРА В КРАХЕ ИДЕИ КАВКАЗСКОГО ЕДИНСТВА (1917-1920)

**Специальность: 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ –2018**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TƏHMİNƏ YASİN qızı ƏLİYEVA**

# QAFQAZ BİRLİYİ İDEYASININ İFLASA UĞRAMASINDA ERMƏNİ AMİLİNİN ROLU (1917-1920)

**İxtisas: 5503.02 - Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2018**

Dissertasiya işi Azərbaycan Universitetinin İctimai Elmlər Kafedrasında yerinə yetirilib.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **X.C.İBRAHİMLİ**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **İ.M.HÜSEYNOVA**
Tarix üzrə elmlər doktoru, dosent **Q.Ə.HACIYEV**

**Aparıcı müəssisə:** Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının “__” _______2018-ci il tarixli iclasında, saat __-da olacaqdır

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “_____”____________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

Sifariş 133, sayı 100 ədəd

**“Ləman nəşriyyat poliqrafiya”**
MMC-də çap olunmuşdur

which is regarded as the main obstacle in the realization of the idea of unity. This is a reference to the terrorist actions, atrocities and deportations committed by the Armenians. The second paragraph deals with the formation of ADR and the idea of creating the Caucasian Union. The last paragraph is devoted to the struggle of Caucasian political emigrants for the unity of the region.

In the **"Conclusion"** have been summed up the results of the research.



## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qafqaz geosiyasi əhəmiyyətə malikdir və tarixən üç dövlətin Türkiyənin, İranın və Rusiyanın maraq dairəsində olub. İndi isə burada daha çox dövlətlərin maraqları toqquşur.

Qafqaz xüsusilə strateji cəhətdən Qərb üçün Orta Asiyaya giriş qapısı, Orta Asiya üçün isə Qərb bazarına keçid - çıxışıdır. Qafqaz, Orta Asiya ilə birlikdə neft və təbii qaz ehtiyatlarının zənginliyinə görə Qərb dövlətlərinin həmişə maraq dairəsindədir.

Hal-hazırda Qafqazda olan türk və müsəlman cəmiyyətləri ilə Türkiyənin ortaq dil, din, mədəniyyət və soy birliyi əlaqələrinin olması, bölgə ilə ortaq tarixi keçmişinin mövcudluğu Qafqazın Türkiyə üçün geosiyasi əhəmiyyətini artıraraq bölgə ilə yaxından maraqlanmasına rəvac verir. Bununla bərabər Xəzər hövzəsi və Qafqazda mövcud zəngin enerji qaynaqlarının Qərbə daşınmasında ən qısa, təhlükəsiz və etibarlı marşrut Türkiyədən keçir. Əks halda Rusiyanın idarəsindəki enerji xətləri, Qərbə qarşı ən təsirli istifadə edilə bilən siyasi və iqtisadi bir silahdır. Bu səbəblə, başda ABŞ olmaqla Qərb dünyası Türkiyənin Qafqazda üstün mövqeyə sahib olmasını istəyir.

Hələ 1994-cü ildə Ümummilli lider Heydər Əliyev Türkiyəyə səfəri zamanı mətbuat konfransında bir müxbirin: "Rusiya bölgəyə - Qafqaza başqa ölkələrin girməsinə razı olarmı?" sualını cavablandırarkən bildirmişdi: "Qafqaz elə bir yerdir ki, böyük dövlətlər, o cümlədən, Rusiya əsrlər boyu buraya maraq gostərmiş, Qafqazda öz movqelərini möhkəmlətməyə çalışmışdır... Bilirsiniz ki, Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazaları var. Rusiyanın Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışması təbii haldır. Bunu başqa cür başa düşmək lazım deyil. Başqa dövlətlər də çalışacaqlar, Türkiyə də çalışmalıdır ki, Qafqazda mövqe tutsun".[1]

Geosiyasətin təməl nəzəriyyəçilərindən olan Karl Haushoffer strateji önəminə görə Qafqazı Süveyş kanalı, Bosfor və Cəbəllütariq boğazları ilə müqayisə edirdi. Qafqaz uğrunda hər zaman açıq və gizli savaşlar gedib və belə beynəlxalq vəziyyət bölgə xalqları arasında birliyi, həmrəyliyi hər zaman zərurətə çevirib. Çünki Qafqazın etnoqrafik mənzərəsi çox

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). 46 cilddə. buraxılışa məsul şəxs R.Mehdiyev, H.Orucov- I cild Bakı: "Azərnəşr", 1997, 615 s.407.

rəngarəngdir. 40 milyon nəfərdən çox əhalinin yaşadığı bu kiçik bölgədə 128 etnos və subetnos məskun olub, mütləq əksəriyyəti də avtoxtondur.[2] Başqa sözlə, Qafqaz kiçik saylı etnoslar ölkəsidir və demək olar ki, onların heç birisinin ayrılıqda güclü xarici təcavüzə müqavimət göstərmək imkanı yoxdur. Buna görə də XIX əsrdən, yəni bölgədə rus işğalları başlayandan üzü bəri Qafqaz xalqları arasında böyük və güclü, həm də amansız düşmənə qarşı birlik və bərabərlik içərisində hərəkət etmək, kollektiv müqavimət göstərmək düşüncəsi formalaşmışdır.

Qafqaz Birliyi ideyasının təməlində bir sıra mühüm amillər dayanır:

Qafqazın Avrasiyada xüsusi geosiyasi mövqeyə sahib olması və burada böyük dövlətlərin maraqlarının toqquşması;

Qafqazda etnosların çoxluğu və onların kiçik saylı olmaları, tək bir etnosun ayrılıqda xarici təcavüzün qarşısını almağa gücünün çatmaması;

Çar Rusiyasının Qafqaza olan imperialist marağı, yeraltı və yerüstü sərvətlərinin mənimsənilməsi, əhalinin istismar edilməsi.

Bu amilləri nəzərə alan və onun əhəmiyyətini dəyərləndirən bölgə ziyalıları, siyasət adamları XX əsrin əvvəllərində birlik ideyasını həyata keçirmək üçün müştərək təşkilatların qurulması qənaətinə gələrək çoxsaylı təşkilatlar və siyasi birlik modelləri formalaşdı. Lakin bu siyasi qurumlar çox yaşaya bilmədi. Onların qısa ömürlü olmalarının iki başlıca səbəbi var idi: birincisi, xarici amillə bağlı səbəbdir, yəni Rusiya yaradılan təşkilatların və siyasi modellərin çox yaşamasına imkan verməyib; ikincisi, daxili amillə bağlı səbəbdir, başqa sözlə ermənilər bir qayda olaraq Qafqaz Birliyi ideyasına qarşı pozucu və dağıdıcı fəaliyyətdə olublar və ruslara içəridən dəstək verərək birlik modellərinin tez sıradan çıxmasına təminat yaradıblar. Qafqaz xalqları və siyasi liderlər nə qədər çalışsalar da erməniləri pozucu fəaliyyətlərindən əl çəkməyə vadar edə bilməyiblər.

XX əsrin əvvəllərində olduğu kimi indi də ermənilər torpaq iddialarından əl çəkməyiblər. Ümumiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmiz bir çox böyük itkilərə məruz qaldı. Respublikamızın ərazisinin 20 faizi işğal edilmiş, bir milyona qədər insan qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olmuş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 50 min nəfərdən çox insan əlil olmuş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi,

[2] Hüseynova H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: "Hərb" nəşriyyatı, 1998, 280 s, s 68.



*T.Y.Aliyeva*

## THE ROLE OF THE ARMENIAN FACTOR IN CRASH THE IDEA OF THE CAUCASUS UNION (1917-1920)

### SUMMARY

The thesis consists of the introduction, two chapters, six paragraphs, conclusion, list of the used sources and literature.

In the **"İntroduction"** is substantiated the actuality of the topic, choice of the chronological frames, thoroughly discussed the source base and the historiography of the problem, determined the goals and objectives, the practical importance and scientific novelty of the investigation.

The first chapter of the thesis entitled **"The initial stage of the formation of the idea of the Caucasian Union",** consists of three paragraphs. Here the problem of the generation of the idea of Caucasian Union after the crash of the tsarist autocracy is discussed. In the first paragraph of this chapter entitled **"The initial necessary conditions for the emergence of the idea of the establishment of the Caucasian Union, the first initiatives to create the unity of the peoples of the region"**, the issues of geopolitics, geography and ethnography of the Caucasus are discussed. The second paragraph is called "**Transcaucasian Sejm and the struggle of the peoples of the Caucasus for national independence"**. Here analyzed the situation in the Caucasus after the crash of the tsarist government and the struggle of the peoples for independence. The last paragraph is called **"Evaluation of chauvinistic Armenian interests in the context of the idea of Unity"**. It is noted that Armenians act from positions in most cases not compatible with the interests of other peoples of the Caucasus, and sometimes directly in the anti-Caucasian positions.

The second chapter of the thesis is entitled **"The idea of Caucasian unity in the period of national independence"** and consists of three paragraphs. In the first paragraph the massacre committed by Armenians against Muslims on the eve and in the years of independence is analyzed,

единства. Здесь рассказывается о террористических акциях, зверствах и депортациях, совершенных армянами. Во втором параграфе рассматриваются вопросы образования АДР и идея создания Кавказского Союза. Последний параграф посвящен борьбе кавказских политических эмигрантов за единство региона.

В **«Заключении»** работы обобщены и подытожены основные результаты и выводы диссертационной работы.



724 şəhər, kənd və qəsəbə qarət edilmiş, yandırılmış və dağıdılmışdır.[3] İnsan itkiləri ilə yanaşı Azərbaycanda yüz milyardlarla maddi zərər də vurulmuşdur.Mövzunun araşdırılmasını aktual edən məsələlərdən biri də məhz budur. Nə qədər ki, Azərbaycana qarşı erməni iddiaları ortadan qaldırılmayıb, Qafqaz Birliyi ideyasının iflasa uğramasında erməni amilinin təsirli rol oynaması məsələsi bir o qədər aktuallığını qoruyub saxlayacaq və bu mövzu təfsilatı ilə araşdırılmalı və ictimailəşdirilməlidir.

Qafqaz Birliyinin yarana bilməməsinin başlıca səbəblərindən biri də qeyd edildiyi kimi, ermənilərin bölgədə və ona bitişik ərazilərdə həyata keçirdikləri deportasiyalar, soyqırımlar və apardıqları etnik təmizləmələrdir. Ermənilərin bu cür dağıdıcı fəaliyyətlərinin hər zaman gözlənilən olduğu nəzərə alan Ümummilli lider H.Əliyev 18 dekabr 1997-ci il tarixində "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" və 26 mart 1998-ci il tarixində "Azərbaycanlıların soyqırımı haqqında"[4] fərmanlar imzaladı. Bu fərmanlar özlüyündə Azərbaycanda, bütövlükdə isə Qafqazda ermənilərin həyata keçirdikləri terror, kütləvi qırğın, etnik təmizləmə və deportasiyaların daha ətraflı və sistemli öyrənilməsinin kifayət qədər aktual olduğunu təsdiq edir.

Ümummilli lider Heydər Əliyevin imzaladığı 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə

---

[3] Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Prezident kitabxanası, 2005, 187 s, s. 12.

[4] "Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). 46 cilddə. XIII cild Bakı: "Azərnəşr", 1997, s.168.; Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasi Prezidentinin 1998-ci il 26 mart tarixli Fərmanı. http://www.e-qanun.az/framework/4684

siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir”.[5]

Bununla da Ümummilli lider H.Əliyev xalqımızın XX əsrin əvvəllərində ermənilər tərəfindən soyqırıma məruz qalmasını rəsmi surətdə bəyan etdi və buna siyasi qiymət verdi.

XX əsrin 90-cı illərindən başlayaraq Qafqaz Birliyi ideyası yenidən aktuallaşmışdır. Bölgə artıq SSRİ dövründə olduğu kimi, müzakirəsiz-təkbaşına Rusiyanın maraq sahəsi və yaxud Şərqi Avropa kimi Qərbin üstüörtülü qoruduğu bir sahədə də deyil. Bu dövlətlər, separatçı hərəkətlər və etnik qrupların qarşıdurmaları səbəbindən varlığı təhlükəyə düşə biləcək dövlətlərdir. Xüsusilə, Ermənistanın Azərbaycana və Gürcüstana qarşı ərazi iddiaları, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Çeçen probleminin həlli məsələsində “Qafqaz dördlüyü” (Rusiya Federasiyası, Gürcüstan, Azərbaycan, Ermənistan) prezidentlərinin səyləri nəticəsində Qafqazda sülhün, sabitliyin təmin olunması və etnik münaqişələrin aradan qaldırılması baxımından Qafqaz Birliyinin yaradılması mövzusunu aktuallaşdırmışdır.

Son üç il ərzində Suriya üzərində Rusiya-Türkiyə rəqabətinin və bundan əlavə Qərb dövlətlərinin təsir edəcəyi prioritet bölgələrdən biri Cənubi Qafqazdır. Bölgə xalqlarının suverenliyini mürtəce dövlətlərdən qoruyub saxlamaq baxımından Qafqaz Birliyi ideyasının yaranması yenidən aktual mövzuya çevrilmişdir.

Dünyada qloballaşma və regionlaşma proseslərinin sürətlə yayıldığı zamanda, region dövlətlərinin siyasi, iqtisadi və mədəni sahədə qərbə inteqrasiya prosesləri tam yerinə yetirilərsə, qloballaşma prossesinin tərkib hissəsi kimi Qafqaz Birliyi ideyasının yaranması yenidən aktual mövzuya çevriləcəkdir. Bu ideyanın reallaşması burada yaşayan xalqların birliyi ilə yanaşı bölgədə marağı olan böyük dövlətlərin də öz siyasətlərində köklü dəyişiklik edərək humanizm prinsiplərinin əsas götürülməsindən asılıdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi 1917-ci ildən 1920-ci ilin sonlarına qədər olan dövrü əhatə edir. Mövzu ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmək və araşdırılan problemin həllini tam izləmək üçün bəzən xronoloji çərçivədən kənara da çıxılmışdır.

Qarşıya qoyulan elmi vəzifələrin yerinə yetirilməsi üçün Qafqazda ilk birlik təşəbbüslərinin meydana gəlməsini araşdırmaq məqsədi ilə 1915-ci

---

[5] Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikasi Prezidentinin 1998-ci il 26 mart tarixli Fərmanı. http://www.e-qanun.az/framework/4684



*Т.Я. Алиева*

## РОЛЬ АРМЯНСКОГО ФАКТОРА В КРАХЕ ИДЕИ КАВКАЗСКОГО ЕДИНСТВА (1917-1920)

### РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, 6 параграфов, заключения, списка использованных источников и литературы.

Во **«Введении»** диссертации обоснованы актуальность темы, выбор хронологических рубежей, обстоятельно проанализированы источниковая база и историография проблемы, определены цели и задачи, практическая значимость и новшества исследования.

Первая глава диссертации, озаглавленной **«Начальный этап формирования идеи Кавказского Союза»**, состоит из трех параграфов. Здесь рассматривается вопрос о появлении идеи Кавказского единства после распада царского самодержавия. В первом параграфе этой главы, названной **«Первоначальные необходимые условия формирования идеи образования Кавказского Союза, первые инициативы создания единства народов региона»,** рассматриваются вопросы геополитики, географии и этнографии Кавказа. Второй параграф называется **«Закавказский Сейм и борьба народов Кавказа за национальную независимость»**. Здесь анализируется сложившаяся ситуация на Кавказе после распада царской власти и борьба народов за независимость. Последний параграф назван **«Оценка шовинистических армянских интересов в контексте идеи Единства»**. Здесь отмечается, что армяне выступают с позиций в большинстве случаев не сочетающихся с интересами других народов Кавказа, а порою и прямо антикавказских позиций.

Вторая глава диссертации озаглавлена **«Идея Кавказского единства в период национальной независимости»** и состоит из трех параграфов. В первом параграфе анализируется совершенные накануне и в годы независимости армянами резня против мусульман, которые расцениваются главным препятствием в реализации идеи

Journal of Qafqaz University-History, law and political sciences, 2015. Cild 3, №2, s. 252-257.
6. Qafqaz Birliyi ideyasının reallaşması uğrunda Cənubi Qafqaz Seyminin fəaliyyəti // Silivizasiya jurnalı 2015. № 9 s.176-182
7. 1918-1919-cu illərdə erməni milli şurasının Qarabağ və Zəngəzurda törətdiyi seperatçılıq siyasəti // Silivizasiya jurnalı 2015. № 10 s.179-184.
8. Qafqaz Birliyi ideyası kontekstində şovinist erməni maraqlarının dəyərləndirilməsi // Gənc alimlərin I beynəlxalq konfransı 2016 s.197-200.
9. Идея объединения Кавказских республик в Конфедерацию в 1918-1919 годах //Кавказ и Мир Международный научный журнал № 22. 2017 s. 108-112.
10. Qafqaz Komitəsi-Qafqaz xalqlarının yaratdığı ilk müştərək təşkilat kimi// Gəncə Dövlət Universiteti elmi xəbərlər jurnalı. 1/2017 səhifə s.320-324.
11. Qafqaz siyasi mühacirlərinin birlik uğrunda mübarizəsi və ermənilərin mövqeyi// Tarix, İnsan və Cəmiyyət Elmi-nəzəri və elmi –metodiki jurnalı 2/2017. s.131-136.
12. XX əsrin əvvələrində ermənilərin qafqazda törətdiyi soyqırımlar.// Silivizasiya jurnalı 2018. №1 (37), s.158-164.
13. Деятельность северо и южнокавказских эмигрантов в 1920–1921 годах в Европе и вопрос о Кавказской Конфедерации// Гілея: науковий вісник. Збірник наукових праць / Гол. ред. В. М. Вашкевич. – «Видавництво «Гілея», Вип. 130 3/2018.с. 154-157.
14. Azərbaycan Xalq Cümhuriyyətinin yaradilmasinin qarşısını almaq üçün erməni-bolşevik qruplaşması tərəfindən törədilən mart soyqırımı (Faktlar və Sənədlər əsasında)// "Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika" mövzusunda Bakı Dövlət Universitetində keçirilən beynəlxalq elmi konfransın materialları. Bakı, 21-23 may 2018-ci il, s. 844-846.



ildə yaradılan "Qafqaz Komitəsi" və Yusuf Akçuranın yaratdığı "Rusiya məhkumu Müsəlman Türk-Tatarların hüquqlarının Müdafiə Komitəsi"nin fəaliyyətinə də nəzər salınmışdır.

Problemin dolğun mənzərəsinin yaradılması üçün yəni 1920-ci il aprel istilasından sonra başlanan Qafqaz mühacirlərinin ilkin dönəmlərində xarici ölkələrdə gedən proseslərə, birlik istiqamətdə göstərdikləri fəaliyyətə, hadisə və proseslərin mahiyyətinə də aydınlıq gətirilmişdir.

"Qafqaz Birliyi ideyasının iflasa uğramasında erməni amilinin rolu (1917-1920)" problemini xronoloji cəhətdən şərti olaraq bir neçə dövrə bölmək olar:

1915-ci ildə yaradılan ilk Qafqaz komitələrinin yaranmasından Cənubi Qafqaz Komissarlığının yaranmasına kimi;

Cənubi Qafqaz Komissarlığının yaranmasından Cənubi Qafqaz Seyminin iflasına kimi;

Müstəqil Qafqaz dövlətlərinin yaranmasından onların süqutuna kimi;

Qafqaz mühacirlərinin Qafqaz Birliyi uğrunda mübarizə dövrü.

**Mövzunun öyrənilmə səviyyəsi və tarixşunaslığı.** Mövzunun ayrı-ayrı istiqamətləri ilə bağlı Azərbaycanda və qonşu ölkələrdə, eləcə də qərbdə bir çox araşdırmalar aparsa da, bu problem tarixşünaslıqda ayrıca tədqiqat mövzusu olmamışdır.

Mövzu ilə bağlı Azərbaycan tarixşünaslığında yazılan əsərlər xarakterinə görə yekcins deyil, əksəriyyəti sırf tarixşünaslığa aid olsa da, bəziləri, memuar, bir qismi isə ədəbi-publisistik və siyasi xarakterlidir.

Ümummilli lider Heydər Əliyevin 46 cildlik "Müstəqilliyimiz əbədidir" (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) kitabından[6] dissertasiya işində istifadə olunmuşdur. Azərbaycanlıların soyqırıma məruz qalması haqqında ilk rəsmi bəyanat və dolğun məlumat verilməsi, bundan əlavə, Ümummilli liderin Qafqaz Birliyi ilə bağlı fikirlərinin öyrənilməsi baxımından faydalanmış, həmin kitabın I, VI, XIII cildlərindən tədqiqat işində istinad mənbəyi kimi istifadə olunmuşdur.

Son illərdə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin müxtəlif aspektlərini əhatə edən sənəd və materiallar ensiklopediya və toplular

[6] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). 46 cilddə. buraxılışa məsul şəxs R.Mehdiyev, H.Orucov- I cild Bakı: "Azərnəşr", 1997, 615 s.; VI cild Azərnəşr, Bakı: "Azərnəşr", 1997, 148s.; XIII cild, Bakı: "Azərnəşr" nəşriyyatı, 1998, 219 s.

şəklində nəşr edilmişdir. Araşdırmada bu ensiklopediya və toplulardakı[7] məlumatlardan geniş istifadə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun müəlliflər kollektivi tərəfindən çap olunmuş çoxcildli Azərbaycan tarixi toplusunun V-VI cildlərində[8] dissertasiya işinin dövrünə uyğun hadisələr işıqlandırıldığından bu kitabların tədqiqat işində böyük əhəmiyyəti olmuşdur.

Birbaşa Qafqaz Birliyi ideyası ilə bağlı yazılan əsərlər çox azdır. İlk dəfə X.İbrahimli "Qafqaz Birliyi", yaxud "Qafqaz Evi" ideyasına "Azərbaycan Mühacirəti Tarixi"[9] adlı monoqrafiyasında geniş yer ayırmış və az sonra məsələnin mühacirət ədəbiyyatında araşdırılmasına ayrıca elmi məqalə ("Qafqaz evi" ideyası mühacirət ədəbiyyatında) həsr etmişdir.

"Qafqaz Evi" məsələsi ilə bağlı A.Balayevin "1917-1918-ci illərdə Azərbaycan milli hərəkatı"na həsr olunmuş əsərində[10] konkret olaraq araşdırdığımız mövzuya, bu məsələnin əhəmiyyətinə xüsusi yer verilmişdir. Təəssüf ki, bunlardan başqa birbaşa Qafqaz Birliyi məsələsinə həsr olunan elmi araşdırmalara təsadüf olunmur.

V.Qafarovun 2011-ci ildə nəşr olunan "Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922)"[11] adlı monoqrafiyasında tədqiq etdiyimiz mövzuya uyğun olaraq Qafqaz birliyi ideyasının yaranması istiqamətində Qafqaz siyasət adamlarının Osmanlı dövlətindəki və Avropadakı fəaliyyətləri, Qafqaz xalqlarının Trabzon və Batum konfranslarında iştirakı və bu konfransların Qafqaz üçün doğurduğu nəticələrdən ərtaflı şəkildə bəhs edilmişdir.

C.Həsənlinin Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-

---

[7] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. red. Y.Mahmudov, 2 cilddə, I c. Bakı: "Lider" nəşriyyatı, 2004 466 s.; II c. Bakı: Lider nəşriyyatı, 2005 472 s.; Azərbaycan Cümhuriyyəti (1918-1920). red. N.Ağamaliyeva. Bakı: "Elm" nəşriyyatı, 1998, 336 s.

[8] Azərbaycan Tarixi 7 cilddə. red. C.Quliyev, V c. Bakı: "Elm" nəşriyyatı, 2008, 584 s.; VI c. Bakı: "Elm" nəşriyyatı, 2008 549 s.

[9] İbrahimli X.C. Azərbaycan Mühacirəti Tarixi. Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2012, 372 s.

[10] Балаев А.Г. Азербайджанское национальное движение в 1917-1918 гг.: монография. Баку: Издательство «Элм», 1998, 136 с.

[11] Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi: 1917-1922. Bakı: "Azərnəşr", 2011, 474 s.



Konfederasiyası Şurası ermənilər üçün açıq elan olunsa da onlar müxtəlif bəhanələrlə uzun müddət Şuraya girmədilər. Ermənilər cəhd edirdilər ki, xristian birliyi motivləri ilə Qafqazda başqa bir birlik-erməni-gürcü birliyi yaratsınlar. Əslində az sonra belə birliyin yaranmasını elan da etmişdilər. Lakin bu birliyin yaradılması xristian təəssübkeşliyindən qaynaqlanmırdı. Söhbət Qafqaz Birliyinin parçalanması istiqamətində növbəti pozucu addım idi və heç şübhəsiz bu ideyanın müəllifi ağ rus mühacirləri idi.

Şərhə ehtiyacı olmayan bu fakt ondan xəbər verir ki, ermənilər rəngindən, ideologiyasında asılı olmayaraq ağ və yaxud qırmızı Rusiyaya təxminən eyni cür yanaşıb, başqa sözlə ancaq xilaskar kimi baxıblar. Ermənilər yaxşı bilirdilər ki, Rusiyada bolşevik hakimiyyəti devriləndən sonra qurulacaq istənilən rejim Qafqazı yenə öz əyaləti kimi görəcək, bölgənin xalqlarına heç bir müstəqillik verməyəcək.

Əsərin **Nəticə** hissəsində tədqiq edilən problemlə bağlı ümumiləşdirmələr aparılmış problemin nəzəri və praktiki perspektivlərinə toxunulmuş, konkret təklif və tövsiyələr irəli sürülmüşdü.

**Dissertasiyanın məzmunu nəşr edilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**

1. Ümumi Qafqaz Birliyi ideyasının reallaşması istiqamətində Beynəlxalq Lahiyələr çərçivəsində Ümummilli lider Heydər Əliyevin fəaliyyəti// Ümummilli Liderimiz H.Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş Gənc Tədqitatçıların I Beynəlxalq Elmi konfransının materialları 25-27 aprel 2013. s. 179-181.
2. XX əsrin əvvələrində erməni siyasəti və Qafqaz Birliyi məsələsi // "Gənc elmi araşdırmalarına dəstək" İctimai Birliyi Gənc Tədqiqatçıların elmi məqalələr toplusu. 2014. s.333-342.
3. Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycan Gürcüstan münasibətləri // Azərbaycan Universiteti "Milli mənəvi dəyərlərin qorunması qloballaşan dünyamızın aktual problemidir" mövzusunda elmi-praktik konfransın materialları. 2014 s. 407-413.
4. XX əsrin əvvəllərində Qafqazda gedən proseslərin Qafqaz Birliyi ideyasına təsiri // Ümummilli Liderimiz H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqitatçıların III Beynəlxalq Elmi konfransının materialları 17-18 aprel 2015-ci il. s. 1435-1437.
5. Ümumi Qafqaz Birliyi ideyasının reallaşması istiqaətində Beynəlxalq Lahiyələr çərçivəsində Ümummilli lider Heydər Əliyevin fəaliyyəti //

göndərdiyi heyət hələ Avropada idi. 1921-ci il mayın 8-də həmin heyət, Azərbaycan Xalq Cümhuriyyətinin Parisdəki nümayəndəliyinə toplaşaraq Qafqaz xalqlarının azadlığı üçün birgə fəaliyyətin zəruriliyini nəzərə alaraq Qafqaz Konfederasiyasının yaradılması məsələsini müzakirə etdilər. İyun ayının 2-də Fransa baş naziri A.Brianla görüşən N.Jordaniyaya məlumat verdi ki, Qafqaz Birliyi məsələsi Fransa hökuməti tərəfindən yüksək qiymətləndirilir.

Hələ mart ayında Qafqaz təmsilçiləri Parisdə Türkiyə xarici işlər naziri Bəkir Sami bəylə görüşmüş və konfederasiya ideyasını müzakirə etmişlər. Bu görüşə ermənilər qatılmadı, gürcülər isə Türkiyə rəsmisindən bu dövlətin Qafqaza hər hansı siyasi iddiasının olub-olmamasını soruşdu. Nazir bildirdi ki, yeni Türkiyənin Qafqaza heç bir iddiası yoxdur, əksinə bolşevik Rusiyası ilə aralarında möhkəm müdafiə səddinin qurulmasında maraqlıdır və bu sədd Qafqaz Konfederasiyasıdır. O bildirdi ki, yunanlarla müharibə bitdikdən sonra Türkiyə Qafqaz Konfederasiyası ilə ittifaq haqqında müqavilə imzalanmasında maraqlı olacaq.

1921-ci il iyunun 10-da Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz respublikalarının Sülh konfransındakı nümayəndələri Ə.M.Topçubaşovun sədrliyi ilə bir yerə toplaşaraq, Rusiya işğalına qarşı Qafqaz xalqlarının və mühacirlərinin mübarizəsinin birləşdirilməsi və gələcəkdə də birlik ideyasının reallaşdırılmasının vacibliyini qeyd edərək birgə bəyanatla çıxış etdilər.[34] Bəyannamədə Qafqazın 4 dövləti öz aralarında olan ziddiyyətləri bir kənara qoyub Qafqaz xalqlarının müstəqilliyini təmin etmək, bu ölkələrdə demokratik idarəçilik formalarının bərpasına və regionun çiçəklənməsinə nail olmaq məqsədilə əməkdaşlıq edəcəklərini bildirirdilər.

Həmin ilin iyulun 4-də Qafqaz Konfederasiyası ideyasının qızğın tərəfdarlarından və ideoloqlarından olan Ə.M.Topçubaşovun təşəbbüsü ilə Parisdə Qafqaz hökuməti və antibolşevik Rusiyası hökuməti təmsilçilərinin qatıldığı bir toplantı keçirildi.

1927-ci ildə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mühacirləri Qafqaz İstiqlal Komitəsi (QİK) adlı bir təşkilat yaratdılar. 1935-ci il fevralın 14-də isə Qafqaz Konfederasiyası Şurası yaradıldı. Qafqaz

[34] Топчибаши А.М. и Расулзаде М.Э.: Переписка. 1923-1926 гг. прим. С.М. Исхаков. Москва.: Издательство «Социально-политическая МЫСЛЬ», 2012, c.30.: BOA, HR.SYS, D. 2303, G. 13 v.31-35.



1920)[12] əsərində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi dövr ərzində xarici siyasətdə, xüsusilə Paris Sülh konfransında tutduğu mövqeyi, diplomatik fəaliyyəti zamanı Qafqaz Birliyi ideyasının əsas tərəfdarı olmasını aydınlaşdırmaq baxımından əhəmiyyətlidir.

N.Yaqublunun "Azərbaycanın Milli İstiqlal Mübarizəsi və Məmməd Əmin Rəsulzadə" və "Azərbaycan Mühacirət irsi"[13] əsərləri M.Ə.Rəsulzadənin həyat və fəaliyyətinin işıqlandırılması, mühacirətdə nəşr edilən ayrı-ayrı mətbu orqanların fəaliyyəti öyrənmək baxımından, mühacirlərin Türkiyə, Polşa və digər avropa ölkələrində sovet rejiminə qarşı apardıqları mübarizə ilə bağlı dolğun məlumatlar əks edilmişdir.

M.Oruclunun "Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992)"[14] əsərində Müsavat Partiyasının 1919-cu il qurultayının, eləcə də M.Ə.Rəsulzadənin və Ə.M.Topçubaşovun göstərdikləri fəaliyyətin şərhi zamanı qısa da olsa Qafqaz Birliyi məsələsinə toxunulur və bu məsələ ilə bağlı yeni elmi bir çox yeni sənəd və materiallar elmi dövriyyəyə gətirilir.

N.Nəsibzadənin[15] Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti və beynəlxalq vəziyyətinə həsr olunmuş əsərində Qafqaz Birliyi ideyasının gerçəkləşməsi problemləri ilə bağlı maraqlı fakt və mülahizələrə rast gəlmək mümkündür.

İ.Musayev "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti" əsəri[16] mövzumuz baxımından əhəmiyyətlidir. Əsərdə ermənilərin qeyd edilən Azərbaycan bölgələrində türk-müsəlmanlara qarşı həyata keçirdiyi soyqırım, deportasiya və separatçılıq siyasəti zəngin faktlarla şərh edilir.

A.İsgəndərov, H.Məmmədova, İ.Niftəliyev, R.Mehdiyev, İ.Hüseynova,

[12] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: "Garısma" MMC nəşriyyatı, 2009, 576 s.

[13] Yaqublu N.Q. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı: 2001, 154 s. və onun Azərbaycan mühacirət irsi Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2011, 232 s.

[14] Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1922). Bakı: Azərnəşr, 2001, 272 s.

[15] Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: "Ay-Ulduz" nəşriyyatı, 1996, 304 s.

[16] Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 1996, 328 s

F.Kazımzadə və başqalarının araşdırmalarından, eləcə də A.Paşayevin sırf arxiv sənədlərinə və materiallarına əsasən hazırladığı "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar"[17] adlı əsərindən Qafqaz Birliyinin yaradılmasına ermənilərin törətdikləri soyqırımların maneyə çevrilməsi bölümü işlənən zaman istifadə olunub. Müəlliflər Qafqazda baş verən siyasi proseslərə aydınlıq gətirərək ermənilərin həm siyasət, həm də hərb meydanındakı dağıdıcı fəaliyyətlərini tutarlı fakt və mülahizələrlə ortaya qoyurlar.

Azərbaycanda milli azadlıq problemini araşdıran tarixçilərin əsərlərində də tədqiq edilən mövzu ilə bağlı maraqlı məlumatlara təsadüf olunur. Bunlardan X.Məmmədov, R.Bayramova və başqalarının əsərlərini[18] xüsusilə qeyd etmək yerinə düşərdi. Bu əsərlərdə milli fikrin inkişafı və təkamülü kontekstində qısa da olsa, Qafqaz Birliyi ideyasının da yaranmasına və inkişafına toxunulur.

Araşdırılan mövzunun müxtəlif istiqamətləri ilə bağlı gürcü və Şimali

[17] İsgəndərli A.C. Azərbaycan Həqiqətləri. Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2012, 228 s; onun, Azərbaycan Xalq Cümhuriyyəti - Şərqdə ilk demokratik respublika //Xalq qəzeti. 29.05.2015. №113, s. 8-9; həmçinin onun, Azərbaycan Türk-Müsəlman Soyqırımı Probleminin Tarixşünaslığı. Bakı: "Adiloğlu" nəşriyyatı, 2006, 396 s. Məmmədova H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: erməni terrorizminin güclənməsi (1918-1920). Bakı: "Nağıl evi" nəşriyyatı, 2006, 150 s.; Niftəliyev İ.V. Qarabağ general-qubernatorluğu dövründə Erməni Milli Şurasının separatçiliq fəaliyyətləri. "Qarabağ dünən, bu gün və sabah"// VIII elmi-əməli konfransının materialları (Qarabağ general-qubernatorluğunun 90 illiyinə həsr olunur) Bakı: Qanun" nəşriyyatı, 2009, s. 85-90; Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsi, 2000, 133 s.; Hüseynov İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: "Çaşıoğlu", 2008, 670 s.; Nəcəfov B.İ. Düşmənin iç üzü. XIX-əsrin sonu XXəsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. 2 hissədə, II hissə. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2006, 436 s.; Süleymanov M.S. Erməni millətçiliyi və Təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 s; Насиров Т.М. Борьба за власть в Азербайджане. Баку: Издательство «Азербайджан», 1993, 120 с.; Mustafayev B. Kafkaslarda Müslüman-türk soyqırımı (1905-1920). // Türk Dünyası İncelemeleri Dergisi / XII/I (Yaz 2012), s. 533-561.; Каземзаде Ф.О. Борьба за Закавказье (1917-1921). Стокгольъм: CA&CC Press, 2010, 328 с.; Paşayev A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2011, 328 s.



Qafqaz respublikaları arasında Qafqaz Konfederasiyasına dair növbəti və müstəqillik dönəmlərində sonuncu cəhd 7 aprel 1920-ci il tarixində Qafqaz respublikalarının Tiflis toplantısında gündəmə gəlmiş və Azərbaycan nümayəndələrinin təklifi ilə Qafqaz Respublikaları Şurası yaradılması qərarlaşdırılmışdı. 9 aprel 1920-ci ildə Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə Qafqaz Cümhuriyyəti Şurasının yaradılması barədə razılıq əldə olundu.[33] Azərbaycan Ədliyyə Nazirinin müavini O.Kriçinski Qafqaz xalqlarının real siyasi birliyini nəzərdə tutan 24 maddədən ibarət layihə hazırlamışdı. Konfransın 22 aprel iclasında "Qafqaz cümhuriyyətləri şurasının" əsasnaməsi təsdiq edildi. Bu sənədə əsasən, "şuraya" olduqca geniş, o cümlədən mövcud ərazi mübahisələrinin dinc həllinə yönəlmiş tədbirlər almaq səlahiyyətləri verilirdi.

Ancaq, bu dəfə də Azərbaycan Xalq Cümhuriyyətinin XI ordu tərəfindən istilası planları həyata keçirməyə imkan vermədi.

Dissertasiyanın sonuncu yarımfəsli müstəqil **"Qafqaz siyasi mühacirlərinin birlik uğrunda mübarizəsi"** adlanır və 1920-ci il Aprel istilasından sonrakı dövrdəndən bəhs edilir.

1917-1920-ci illərdə Qafqaz Birliyinin yaradılması istiqamətində ermənilərin məqsədinin bu birliyə mane olmaq olduğunu təsdiq etmək üçün onların müstəqillik dövründən sonrakı fəaliyyətlərinə də aydınlıq gətirmək, sözügedən pozucu fəaliyyətin detallı və bütöv mənzərəsini vermək baxımdan Qafqaz Birliyi ideyasının mühacirət dövrünə də qısa nəzər salmağa ehtiyac var. 1920-21-ci illərdə Cənub Qafqaz respublikalarının milli müstəqillikləri devrildikdən sonra, hökumət rəhbərləri, görkəmli ictimai-siyasi xadimlər mühacirət etmək məcburiyyətində qaldı. Parlamentin sədri Həsən bəy Ağayev Tiflisdən qayıtmamışdı və elə orada XI ordunun Azərbaycanı işğal etməsi xəbərini eşidib Azərbaycanın səlahiyyətli nümayəndəsi kimi bəyanat verdi. Bəyanatda XI ordunun Azərbaycana soxulması və bunun nəticəsində xeyli insan tələfatının meydana gəlməsi, eləcə də milli müstəqilliyin devrilməsinin, hakimiyyətin bolşeviklər tərəfindən zorla mənimsənilməsinin məsuliyyətinin Sovet Rusiyasının üzərinə düşdüyü bildirilirdi.

Qafqaz Birliyi mühacirətin ilk illərində yenidən aktual məsləyə çevrildi. Məlum olduğu kimi Azərbaycan dövlətinin Paris sülh konfransına

[33] İbrahimli X.C. Azərbaycan Mühacirəti Tarixi. Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2012, s.322.

gedişində Ermənistan ərazi sərhədlərini düzgün olduğunu qəbul etsədə yenidən ərazi iddiaları ilə çıxış etdilər.

1918-ci il 30 oktyabrda Türkiyə-Antanta arasında bağlanan Mudros sülhündən sonra qərbə yönəlik xarici siyasət kursu tətbiq olunmağa başladı. Bu dövrdə Cənub Qafqaz respublikaları üçün yeni mürəkkəb şərait yarandı-Denikin Şimali Qafqazı tutaraq cənubu təhdid edirdi. Cənub Qafqaz respublikaları bir tərəfdən Denikinə qarşı Şimali Qafqaza yardım göstərməyə can atır, digər tərəfdən isə Antantanın istəyinə uyğun olaraq Könüllülər Ordusu ilə savaş aparmaqdan çəkinirdilər. Vəziyyəti gərginləşdirən, Cənub Qafqazda əsasən Azərbaycan və Gürcüstanı daha ehtiyatlı davranmağa vadar edən amillərdən biri də Türkiyənin bölgədən çəkilib getməsi və Ermənistanın vacib məsələlərdə Qafqaz xalqları ilə həmrəy olmaması idi.

Belə bir zamanda Cənub Qafqaz respublikaları bir tərəfdən müstəqilliklərin tanınması istiqamətində qərb dövlətləri ilə ciddi danışıqlar aparır, digər tərəfdən isə onları narazı salmadan Şimali Qafqazın da müdafiəsi haqqında düşünürdülər. Çünki Şimali Qafqazın təhlükəsizliyi birbaşa Cənub Qafqazın da təhlükəsizliyi demək idi. Bunu dəyərləndirən Azərbaycan və Gürcüstan siyasətçiləri imkan daxilində Şimali Qafqaza dəstək verməyə və Qafqaz Birliyinin həyata keçməsi istiqamətində praktiki addımlar atmağa çalışırdılar.

1918-19-cu illərdə Qafqazın şimalında gərgin proseslər gedirdi. Şimalla əlaqələrin qurulması, tərəflər arasında əlaqələrin və birliyin yaradılması istiqamətində atılan addımlara ermənilər soyuq baxırdı. Onlar yaxşı başa düşürdülər ki, Qafqaz Konfederasiyasının yaradılması ilə bağlı 1920-ci ilin yanvarında Tiflisdə keçirilməsi nəzərdə tutulan konfransda ərazi iddiaları ilə çıxış edə bilməyəcəklər, etsələr də bunun faydası olmayacaq. Ona görə də vaxt udmaq, Tiflis konfransını gecikdirmək taktikası seçdilər və konfransın keçirilməsinə martın 24-də razılıq verdilər.[32]

Elə həmin gün erməni hərbi bölmələri Dağlıq Qarabağın əksər yaşayış məntəqələrinə hücum etdilər. Məlum oldu ki, ermənilər üçün konfederasiya, həmrəylik, razılaşma, sülh məfhumu mövcud deyil, onları ancaq terror və ərazi iddiaları maraqlandırır.

[32] Насиров Т.М. Борьба за власть в Азербайджане. Баку: Издательство «Азербайджан», 1993, 120 с, с.31.



Qafqaz müəlliflərindən M.Baxtadze, A.Taxo-Qodi və başqalarının[19] yaradıcılığında da faydalı məqamlar vardır. Bu müəlliflər erməni ideologiyasının, qonşulara davamlı olaraq irəli sürülən torpaq iddialarının mahiyyətinə, Daşnaksütyun ideologiyasının meydana gəlməsi prosesinə və onun dağıdıcı, aqressiv xarakterinə aydınlıq gətirirlər.

Erməni müəlliflərindən Daşnaksütyun liderlərindən biri olan O.Kaçaznuni və Q.A.Petrosyanın[20] əsərləri də tədqiqat baxımından maraqlı məlumatlarla və faktlarla zəngindir. Adı çəkilən müəlliflərin əsərləri müqayisəli təhlillər və mənbəşünaslıqda mövcud olan faktlar arasında paralellər aparmaq baxımından da diqqəti cəlb edir.

Araşdırılan mövzunun müxtəlif istiqamətləri ilə bağlı Türkiyədə maraqlı tədqiqatlar aparılıb. A.Saydam, A.Deliorman, S.Şimşir və başqalarının əsərlərində[21] "erməni məsələsi"ni, Birinci dünya müharibəsi

[19] Бахтадзе М.А. Грузино-Азербайджанские попытки обьединения Кавказа для зашиты независимости и территориальной сепаратизма, разрешение конфликтов, долговременный мир. Материалы международный научно-прпктической конференции. Тбилиси: 2009, 118 с., с.59-67.; Читаиа Д.Д. Вопросы армянского идейного шовинизма и Карабахская война. // Южный Кавказ: истоки сепаратизма, разрешение конфликтов, долговременный мир. Материалы международный научно-прпктической конференции. Тбилиси: 2009, 118 с., с.67-86.; Метревели Р.В. Кавказская цивилизация в контексте глобализации., Стокгольм: CA&CC Press, 2009, 108 с.; Тахо-Годи А.А. Революция и контрреволюця в Дагестане. Махачгала: Издательство Даг.кн.,1927, 236 с.

[20] Качазнуни О.В. Дашнакцутюн больше нечего делать. Баку: Издательство «Элм», 1990, 92 с.; Петросян Г.А. Отношения Республики Армения с Россией (1918 – 1920 гг.) Ереван: Издательство ЕГУ, 424 с.

[21] Saydam A. Kurtuluş Savaşı'nda Trabzon'a Yönelik Ermeni-Rum Tehdidi. Atatürk Araştırma Merkezi Dergisi, C. VI, No. 17 (Mart 1990), s. 427-428.; Deliorman A. Türklere Karşı Ermeni Komiteleri. 3.bas. İstanbul: 1980, 153 s.; Şimşir S.S. Azerbaycanın İstiklal Mücadelesi, İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2006, 272 s.; Cöhce S. Osmanlı Ermeni toplumunda siyasallaşma cabaları. // Ermeni Araştırmaları, sayı 8, Ankara: 2003, s. 37-67.; Doğanay R. Milli Mücadile Döneminde Türkiye, Sovyet Rusya ve İtilaf Devletlerinin Kafkas Politikaları. Firat Universitesi Sosyal Bilimler Degisi. Cilt: 19, Sayı: 2, Elazığ: F.U.S.B Yayınları, 2009, s. 279-298; Kantemir A.H. Kafkasya ve Rusya. İstanbul: Kafkas Almanağı, 1936 s.44-51.; Kurat A.N. Türkiye ve Rusya & XVIII.Yüzyıl Sonundan Kurtuluş Savaşına Kadar Türk-Rus İlişkileri (1798-1919). Ankara: Türk tarih kurumu, 2011, 764 s.; Koçaş S.M. Tarihte Ermeniler ve Türk-Ermeni İlişkileri, 1. basın. Ankara: Türk Tarih Kurumu yayınları, 1967, 244

zamanı ermənilərin Şərqi Anadolu və Qafqazda dağıdıcı fəaliyyətlərini, Trabzon və Batum konfranslarında gedən gərgin danışıqlar prosesini, müttəfiq dövlətlərin Türkiyəyə təzyiqlərini və bu zaman ermənilərdən istifadə etmələrini arxıv materialları və sənədləri əsasında ətraflı şərh ediblər və bu əsərlərdən araşdırma zamanı səmərəli istifadə olunmuşdur.

Xarici müəlliflərdən G.Jasckhe, S.G.Ronald və başqalarının əsərlərində[22] XX əsrin əvvəllərində dünyada gedən proseslər kontekstində Qafqazda cərəyan edən proseslər, Qafqaz Birliyi ideyasının iflasında ermənilərin oynadığı neqativ rola aid xeyli fakt və materiallar mövcuddur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Qafqaz Birliyi ideyasının iflasa uğramasında Rusiyanın, bir sıra hallarda qərb dövlətlərinin yürütdüyü parçalama siyasətinə və bu siyasətə daxildən dəstək verən ermənilərin oynadığı rola, eyni zamanda Qafqaz xalqlarının çətin və mürəkkəb şəraitdə birlik uğrunda apardıqları mübarizəyə aydınlıq gətirməkdir.

Qarşıya qoyulan elmi məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələrin icrası planlaşdırılmışdır:

-Qafqaz Birliyi ideyasının yaranmasını zəruri edən təbii və tarixi şərtlərin, bölgə xalqlarının birlik yaratmaq istiqamətində atdığı ilk addımların, ilk birlik təşəbbüslərinin öyrənilməsi;

-Cənubi Qafqaz Seymi və Qafqaz xalqlarının milli müstəqillik uğrunda apardıqları mübarizə proseslərinin araşdırılması;

-Qafqaz Birliyi ideyası kontekstindən ermənilərin şovinist maraqlarının, "erməni məsələsi"nin və "genosid siyasətinin" mahiyyətinin

s.; Tosun R.A. Ermeni Meselesi ve Kayserideki Ermeni Olayları. Ankara: Tamga, Yayıncılık, 2000, 170 s.; Uras E.A. Tarihte Ermeniler ve Ermeni Meselesi. İstanbul: Belge Yayınları, 1987, 767 s.

[22] Gotthard J. 1916 Lozan Konqresinde Rusiya mahkumu milliyetler. Kurtuluş, Aylık Mecmua, Berlin, №28, 1937. s.8-13.; Ronald Gr. S.The Baku Commune. 1917-1918: Class and Nationality in the Russian Revolution. New Jersey: Princeton University Press, 1972, 412 p.; Cornell S.E. Small Nations and Great Powers. A Study of Etnopolitical Conflict in the Caucasus. UK "Curzon" press, 2001, 490 p.; Свентоховский Т. Русский Азербайджан 1905-1920: Формирование национальной самосознания в мусульманском обществе Xazar, 1990, 295 c.; Ulman R.H. Anglo-Soviet Relations 1917-1921. 3 Volm, Volume I, Intervention and the War. Princeton University Press, 1961 , 322 p.; Mühlen.P.Z. Camali Haç ile Kızıl yıldız arasında. Ankara: Türk Tarih Kurumu yayınları, 1984. 264 s.



tərəfindən hazırlanmışdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.[29]

Beləliklə, üç gün – (18-21 mart (30 mart – 2 aprel) 1918-ci il) – davam edən Mart qırğınında, Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirdiyi hesabatına görə, Bakıda "əksinqilabçı" adı ilə, milli və dini əlamətlərə görə 12 mindən çox azərbaycanlı məhv edildi, kütləvi formada insan cəsədləri iyrənc və dəhşətli şəkildə təhqir edildi.[30]

Ermənilərin xarici siyasəti də Qafqaz Birliyinin yaradılmasına deyil, ancaq milli maraqlarının və iddialarının təmin olunmasına yönəlib. Təkcə 1917-1918-ci illərə nəzər salmaq kifayətdir: bu qarışıq və mürəkkəb zamanda onlar həm, bolşeviklərlə, həm eser-menşeviklərlə, həm də ağqvardiyaçılarla həmdə Rusiya ilə yanaşı ona əks mövqeydə olan qərb dövlətləri iş birliyi üçün yollar axtarır və belə işbirliyi yaradırdılar. Nə üçün? Çünki həmin qüvvələr ermənilərlə iş birliyi qurmaqda, onlardan Türkiyəyə və Azərbaycana qarşı istifadə etməkdə, bu dövlətləri asan idarə olunan hala gətirməkdə maraqlıdırlar. Bu siyasət indi də dəyişməyib. Dəyişən zaman, nəsillər və siyasətin tətbiqi üsulları və formalarıdır.

İkinci fəslin ikinci yarımfəsil **"Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz Birliyi məsələsi"** adlanır. Yarımfəsildə şərh edilir ki, 1918-ci il mayın 26-28-də Cənub Qafqazın üç xalqı milli müstəqilliklərini bəyan etdi. Müstəqil dövlətlər daxili və xarici siyasətlərini formalaşdırmağa və tədricən onun əsas müddəalarının həyata keçirilməsinə başladılar. İlkin mərhələdə yürüdülən xarici siyasət Osmanlıya yönəlik xarici siyasət idi və hər üç dövlət bu zəifləyən imperiyanın gücü və bölgədəki nüfuzu ilə razılaşırdı.

1918-ci ilin iyul ayında İstanbulda keçirilən Dördlər İttifaqı ölkələri ilə Qafqaz respublikalarının konfransında erməni və gürcülərin ərazi iddialarına qarşı Azərbaycan nümayəndə heyəti "Azərbaycan Hökuməti Hüdudları" başlığı ilə təqdim etdiyi sənəddə Azərbaycanın Ermənistan və Gürcüstanla olan sərhəd xəttinə xüsusi diqqət ayrılmışdır.[31] Konfrans

[29] ARPİİ SSA f. 275, siy.2, iş 27, v 16-24.

[30] ARPİİ SSA f. 275, siy.2, iş 20. V. 47.; ARPİİ SSA f. 275, siy.2, iş 27 v. 75-77.

[31] ARDA, f. 894, siy. 10, iş 31,v 27. ; BOA, HR.SYS, D. 2372, G. 1, v 24-27.

bölgələrdə törətdikləri qətliamların birlik ideyasına ciddi zərbə vurmasına faktlar və dəlillərin köməyi ilə aydınlıq gətirilir.

Göstərilir ki, Qafqaz xalqlarının birliyinə mane olan amillərdən biri də, ermənilərin bu bölgədə və Osmanlı torpaqlarında davamlı olaraq törətdikləri qətliamlar və həyata keçirdikləri terror aksiyaları olmuşdur. Ermənilər tutduqları torpaqlarda istisnasız olaraq heç bir xalqın yaşamasına imkan verməmişlər. Bu proses 1915-ci ildən sonra Qafqazda daha amansız və intensiv şəkil almışdır.

Ermənilər Osmanlıda öz niyyətlərinə çata bilməyəcəyini dərk etdikdən sonra Rusiyanın nəzarətində olan Qafqazda dövlət yaratmaq fikrini qətiləşdirdilər. Birinci dünya müharibəsinin başlaması erməni milli maraqları baxımından münasib bir zaman sayılırdı. Şərqi Anadolunu tərk etdikdən sonra da erməni hərbi birləşmələri silahı yerə qoymadı, sülhün şərtlərinə məhəl qoymaq istəmədilər və rusların XIX əsrin sonlarında ələ keçirərək erməniləri məskunlaşdırdığı Qars, Ərdəhan, Trabzon kimi strateji şəhərləri və ona bitişik əyalətləri tərk etmədilər. Bu şəhərlərin və Şərqi Anadolu əyalətlərinin demək olar ki, hamısı Brest-Litovsk razılaşmasından sonra türk əsgərləri tərəfindən hərbi əməliyyatlarla azad edilmişdi.

Bu torpaqları tərk etdiklərinə görə ermənilər rusları lənətləyir, Brest-Litovsk razılaşmasının şərtləri ilə qətiyyən barışmaq istəmirdilər. Ermənilərin inadla müqavimət göstərmələrinin əsas səbəblərindən biri ingilis və fransız hərbi, siyasi dairələrinin onlara verdiyi vədlər idi. Bu vədlər və dəstəklər olmasaydı, heç şübhəsiz ermənilər bu qədər şıltaqlıq etməz və bölgədə sülh, stabillik daha tez və asan bərqərar olardı.

Araşdırma əsasında məlum olur ki, ermənilər Qafqaz xalqlarının birliyə həsr olunan konfrans, konqres keçiriləndə, dünyada Qafqazla bağlı hansısa müzakirə aparılanda baş verirdi. Ermənilər çox vaxt belə vaxtları şüurlu şəkildə seçib qətliam törədirdilər ki, "erməni məsələsini" daim dünyanın diqqətində saxlasınlar. Başqa sözlə, ermənilər bir neçə cəbhədə vuruşurdular: hərbiçilər qətliam, talan törədir, diplomatlar bu hadisələrin onlara qarşı törədildiyi barədə dünya hökumətlərinə və təşkilatların yalan məlumatlar yayır, tədbirlərdə, görüşlərdə əks hücumlar təşkil edir, səs-küy salırdılar, qəzetlər isə bu yalanı ictimailəşdirirdilər.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayətlərini araşdırmaq üçün Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Bakıda törədiləcək soyqırımın planı hələ 1917-ci ildə "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası



dəyərləndirilməsi;

-Milli müstəqillik ərəfəsi və illərində ermənilərin törətdikləri qətliamların, terrorların və həyata keçirilən deportasiyaların birlik ideyasının gerçəkləşməsi prosesinə göstərdiyi təsirlərin araşdırılması;

-Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də Gürcüstan və Şimali Qafqaz xalqlarının Qafqaz Birliyi məsələsinə münasibətinin və bu istiqamətdə fəaliyyətlərin öyrənilməsi;

-Milli müstəqilliklərin itirilməsindən sonra Qafqaz mühacirlərinin Qafqaz Birliyi ideyasına qarşı ermənilərin pozuculuq fəaliyyətlərinin araşdırılması;

-Araşdırmanın yekunu kimi elmi ümumiləşdirmələrin aparılması və nəticələrin şərh edilməsi.

**Tədqiqatın mənbəşunaslıq bazası**. Tədqiqatın hazırlanmasında Azərbaycan Respublikası Dövlət Arxivinin Azərbaycan SSR Xarici İşlər Nazirliyinin sənəd və materiallarının saxlanıldığı 28 saylı, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının Daxili İşlər Nazirliyinin sənəd və materiallarının saxlanıldığı 894 saylı, 1918-1920-ci illərdə Gürcüstanda Azərbaycan Demokratik Respublikası hökumətinin nümayəndəliyi sənəd və materiallarının saxlanıldığı 897 saylı, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası hökumətinin Xarici İşlər Nazirliyinin sənəd və materiallarının saxlanıldığı 970 saylı fondlarından, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin 275, 276 və 277 saylı fondlarından, habelə Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin Xariciyyə Nəzarəti fondunun materiallarından geniş istifadə olunmuşdur.

Digər bir qismi də adı çəkilən ölkələrdə nəşr edilən arxiv sənəd və materialları topluları halında nəşr olunmuşdur.[23]

---

[23] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafiq hesabatlar). 2 cilddə, I c., Bakı: Azərbaycan, 1998, 796 s.; II c., Bakı: Azərbaycan, 1998, 992 s.; Azərbaycana Xarici Müdaxilə Tarixindən. 1918-1920-ci illər. Sənədlər və materiallar // "Azərbaycan arxivi", 1988, N 1-2 (31-32), 196 s.; Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı 1998-ci il 26 mart tarixli http://www.e-qanun.az/framework/4684; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Prezident kitabxanası, 2005, 187 s.; Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Bakı: "Adiloğlu" nəşriyyatı, 2006, 216 s.; Arşiv Belgeleriyle Ermeni Faaliyetleri 1914-1918. 8

Bu sənədlər toplularının bir çoxundan Azərbaycanda ilk dəfədir ki, istifadə olunur. Bunlardan Dağlılar Respublikasının sənəd və materialları toplusunda[24] cəmləşən və Şimali Qafqaz xalqlarının azadlıq və müstəqillik uğrunda mübarizəsinə işıq salan sənəd və materiallar mövzunun hərtərəfli öyrənilməsi baxımından əvəzsiz rol oynayır.

Mənbə bazasına həm ötən əsrin əvvəllərində, həm də müasir dövrdə qəzet və jurnallarda, internet saytlarında dərc olunmuş çoxsaylı materialları da aid etmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi xadimlərindən M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, A.Ziyadxanovun[25] hazırladıqları rəsmi

---

cildde, II cild, Genelkurmay Başkanlığı. Ankara: Genelkurmay Basın Evi, 2005, 653 s.; Birinci Dünya Harbinde Türk Harbi Kafkas Cebhesi. 3. Ordu Harekatı. 2 cildde II Cilt, Ankara: Genelkurmay basın evi, 1993, 780 s.; Дашнаки. Из архивов департамента полиции. ЦГАОР СССР, ф. 102 оп. 253, ед. хр. 280, л. 1 – 12 об. Баку: издательство «Коммунист» ЦК КП Азербайджана, 1990, с.28.; Документы внешней политики СССР. Том 1. 7 ноября 1917- 31 декабря 1918 г. Москва.: Издательство «Госполитиздат», 1959, 712 с.; Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: 1919, 514 с.; Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов / Отв.ред. В.А. Микаэлян. Ереван: АН Армении, 1992, 762 с.; Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года. - издан, по распоряжению Главноначальствующего Гражданскою Частию на Кавказе, Закавказским Статистическим Комитетом.Тифлис: Типография И. Мартиросианца, 1893.- XV, [951], 52, [2] с.: табл.

[24] Союз Объединённых Горчев Северного Кавказа и Дагестана (1917-1918 гг), Горская Республика (1918-1920). Документы и материалы. Отв. ред. А.И.Османов. — Махачкала: Саламат, 1994, 614 с.

[25] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: "Gənclik" nəşriyyatı, 1991, 112 s.; Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı: "Təknür" nəşriyyatı, 2012, 68 s.; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: "Elm" nəşriyyatı 1990, 152 s.; Rəsulzadə M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər: 1918-1919. Bakı: "Qanun" nəşriyyatı, 2013,160 s.; Topçubaşov Ə.M. Azərbaycanın təşəkkülü. //Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1990, № 3, s. 114-134;Topçubaşov Ə.Ə. Azərbaycan Cümhuriyyətinin yaradılması Bakı: "Təknur" nəşriyyatı, 2013, 55 s.;Topçubaşov Ə.Ə. Paris məktubları: Azərbaycan Xalq Cümhuriyyəti Sülh Nümayəndə Heyəti sədrinin Azərbaycan Hökumətinə məlumatları: mart 1919- noyabr 1919. Bakı: Azərnəşr, 1998, 119 s.; Ziyadxanlı A.Ə. Azərbaycan tarixinə, ədəbiyyatına və siyasətinə dair məqalələr. Fransa-Paris



Burada şərh edilir ki, Ermənistan Qafqaz dövlətlərinin və xalqlarının maraqları ilə uzlaşmayan, əksər hallarda isə ona əks olan mövqedən çıxış edir. Qafqaz xalqlarının maraqları ilə erməni maraqları bir çox məsələlərdə üst-üstə düşmür, əksinə ziddiyyət təşkil edir. 1917-21-ci illərdə Qafqazda formalaşan dörd dövlətin qısamüddətli müstəqillik həyatında həmin zidiyyət çox açıq şəkildə ortaya çıxdı: Ermənistan, Gürcüstan və Azərbaycana qarşı savaş açdı, bölgə dövlətləri beynəlxalq münasibətlərdə mövcud olan normalarla, "Qafqaz qanunları" ilə deyil, Erməni milli maraqları ilə qarşılaşdılar. Erməni milli maraqlarının təməlində nə dayanır?

Yarımfəsildə bu suallara cavab axtarılır və bildirilir ki, ermənilər Qafqaza gəlmə xalq olduqlarından, eyni zamanda xaraktercə, milli psixoloji xüsusiyyətlərinə görə bölgə xalqlarından fərqləndiyindən, hər zaman bölgədənkənar güclərlə əməkdaşlığa meyl edib və inteqrasiyaya mane olub. Yarımfəsildə "erməni məsələsi"nin mahiyyətinə də aydınlıq gətirilir və göstərilir ki, ABŞ, İngiltərə, Fransa və Rusiya müxtəlif maraqlar güdsə də, hər birisi öz milli maraqlarından çıxış etsə də hamısını birləşdirən bir ortaq cəhət var idi-"erməni məsələsi"ndən alət kimi Osmanlıya qarşı istifadə etmək, bu qocaman imperiyanı çöküzdürüb, onun strateji əhəmiyyət daşıyan bərəkətli torpaqlarına sahib olmaq.

Bu yarımfəsildə o da bildirilir ki, qərbin böyük güclərini birləşdirən başqa bir maraq isə "genosid siyasəti" olmuşdu. 1915-ci ildə Türkiyədə baş verən hadisələr qısa zaman kəsiyində beynəlmiləlləşdi və türklərə qarşı kəskin silaha çevrildi və ondan get-gedə daha çox dövlət intensiv şəkildə istifadə etməyə başladı.

Yarımfəslə yekun vurularaq göstərilir ki, genosid-bir etnosu tarixən yaşadığı ərazilərdə yaşamaq imkanından qovmaqla, qırmaqla mərhum etmək və onun yaratdığı mirası yer üzündən silməkdir. Bu siyasət isə yalnız ermənilərə məxsusdur.

Təəssüflər olsun ki, gerçəkdən bu günün özündə də genosidlə bağlı dünyadakı mənzərə, məsələyə böyük dövlətlərin münasibətləri dəyişməz qalıb.

Dissertasiyanın ikinci fəsli **"Milli müstəqillik dövründə Qafqaz birliyi ideyası"** adlanır.

İkinci fəslin birinci yarımfəsli **"Müstəqillik ərəfəsində və illərində ermənilərin törətdikləri qətliamlar birlik ideyasının gerçəkləşməsinə başlıca maneə kimi"** yarımfəslidir. Bu hissədə ermənilərin törətdikləri qətliamlardan, deportasiyalardan və terror aksiyalarından söhbət açılır. Ötən yüzilliyin ilk iki onilliyində ermənilərin Qafqaz və ona bitişik

dayanır, imkan düşən kimi bu ideyanın gerçəkləşməsinə əngəl olmağa çalışırdı.

Qafqaz Birliyi ideyasının ilkin dönəmlərinin təhlili onu da göstərir ki, məhz bu mərhələdə tərəflər, onların toqquşan maraqları aşkar olmuş və bu maraqlar məzmunu dəyişmədən, lakin şəkli zaman-zaman dəyişməklə bütün XX əsr boyu davam etmiş, indi də davam etməkdədir.

Birinci fəslin ikinci yarımfəsil **"Cənubi Qafqaz Seymi və Qafqaz xalqlarının milli müstəqillik uğrunda mübarizəsi"** adlanır. Burada Rusiya imperiyasının dağılması ilə Qafqazda yaranan gərgin vəziyyət və yerli xalqların bu vəziyyətdən çıxmaq üçün göstərdikləri fəaliyyətlər, onların yaratdıqları ilk birlik təşkilatları haqqında məlumatlar öz əksini tapır. Göstərilir ki, Cənub Qafqaza nisbətən Şimali Qafqazda birliyin həyata keçməsi ənənəsi və imkanları daha çoxdur, bölgədə mövcud olan şərait daha münasibdir. Başqa sözlə, burada ermənilər kimi Rusiyaya xidmət göstərən və bölgənin birliyinə qarşı dayanan daxili güc yoxdur, varsa da zəifdir.

Cənubi Qafqazda isə azərbaycanlıların və gürcülərin maraqlarından fərqli olaraq erməni maraqları ilk növbədə cənubun, sonra isə bütövlükdə Qafqazın birləşməsinə, xalqların bir araya gəlməsinə qarşı yönəlib. Belə təəssürat yarana bilər ki, erməni maraqları daxili gücü və enerjisi ilə bölgənin birliyini parçalaya bilir. Lakin vəziyyət göründüyü kimi sadə deyil. Qafqazın birliyini pozan güc Rusiyadır, ermənilər isə daim onların yanında olur və istəklərinə çata bilirlər. 1918-ci ildə də öz istəklərinə nail ola bildilər, Anadoluda dövlətlərini qura bilməsələr də Qafqazda milli dövlətlərini yaratmağa nail oldular.

Yarımfəslin yekunundakı qısa təhlildən aydın olur ki, Bölgə xalqları XIX əsrdə olduğu kimi Ruslara müqavimət göstərə bilmədilər. Doğrudur Denikinin uğurlarının əsas səbəbi Könüllülər Ordusuna Antantanın verdiyi hərtərəfli dəstək idi. Lakin o da bir gerçəklikdir ki, yerli əhali də mütəşəkkil müqavimət göstərə bilmədi və Dağlılar Respublikası asanlıqla devrilməsinin səbəbləri rus işğalları nəticəsində fəal hissənin ölkədən qovulması və əhalinin yaranmış vəziyyəti düzgün dəyərləndirə bilməməsi idi ki, bu da milli şüur məsələsinin zəif formalaşmasına dəlalət edirdi. Nəhayət yerlərdə rus hakimiyyətini müdafiə edən zümrələrin yaradılması ilə Qafqaz xalqlarının parçalanıb bir-birlərindən ayrılması, bəzi hallarda qarşı-qarşıya qoyulması siyasətinə nail ola bilmişdi.

Birinci fəslin sonuncu və üçüncü yarımfəsli **"Qafqaz Birliyi ideyası kontekstindən şovinist erməni maraqlarının dəyərləndirilməsi"**dir.



məlumatlar, xatirələr və elmi araşdırmalar da maraqlı və faydalı əsərlər sırasındadır. Bu sənəd və materiallarda, araşdırmalarda erməni iddialarının, qırğınlarının birliyə vurduğu ziyan, eyni zamanda Paris sülh konfransı ərəfəsində və gedişində onların pozucu fəaliyyətləri şərh edilir.

Qafqaz Birliyi məsələsi ilə bağlı mühacirətdə xeyli məqalələr yazılıb. Bu müəlliflərdən M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, M.Mehdizadənin[26] təkcə azərbaycanlılar deyil, eyni zamanda Qafqaz Birliyi ideyasının reallaşması istiqamətində böyük rol oynayan Dağıstan siyasi xadimlərindən H.Bammat, Ə.Qandəmir, gürcü Knyazı Baqrationun[27] məqalələri fakt və materiallarla, məlumatlarla daha zəngindir. Adı çəkilən şəxslərin yaradıcılığında rusların Qafqazı işğal etməsi və bölgə xalqlarını parçalaması siyasəti, ermənilərdən alət kimi istifadə etməsi, Qafqaz Birliyinin yaradılmasının real imkanları və yolları barədə bir çox fakt və mülahizələr öz əksini tapıb.

Bunlardan əlavə, XIX əsrin sonu– XX əsrdə yaşayıb yaratmış nasirlərimizdən M.M.Nəvvab, M.S.Ordubadi və Y.V.Çəmənzəminlinin[28] yaradıcılığında öz əksini tapan erməni-türk-müsəlman savaşları sözügedən istiqamətlə bağlı maraqlı faktlarla və məlumatlarla zəngindir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatda aşağıdakı ümumelmi metodlardan istifadə olunur: analiz-sintez, yəni tədqiqat resurslarının, məqsəd və vəzifələrin müəyyənləşdirilməsi; induksiya-deduksiya, yəni ermənilərin Qafqaz Birliyi ideyasının gerçəkləşməsi istiqamətində göstərdikləri pozucu fəaliyyətlərin ziyanlı nəticələrinin

(1919), Bakı: Azərbaycan nəşriyyatı, 1993, s.84-85; Ziyadxanov A.Ə. Azərbaycan. Bakı: Azərbaycan nəşriyyatı, 1993, 176 s.

26 Resulzade M.A. Qafqaziya birliyi fikri mühacirətdə. // Kafkasya (München), Haziran-Temmuz 1952, № 11-12 s.5-9; Məmmədzadə M.B. Azərbaycan Milli Hərəkatı. Bakı: "Nicat" nəşriyyatı, 1992, 246 s.; Mehdizadə M.M. Beynəlmiləl siyasətdə petrol. Bakı: "Azərnəşr", 1994, 61 s.

27 Bammat H. N."Hedefimiz". Z.Kafkas, 1936, № 6;Bammat. H.N. Kafkas Konfederasyonu ve ermeniler. // Kafkas Almanagı. İstanbul, 1936, s. 49-54; Kantemir A.H. Kafkasya ve Rusya. İstanbul: Kafkas Almanağı, 1936 s.44-51; Bagration P. Tarihte Kafkasya ve Rusya. Kafkasya (Der Kaukasus) Aylık Mecmua, München, Haziran-Temmuz 1952, № 11-12, s.15-20

28 Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: "Azərbaycan", 1993, 128 s.; Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: "Qafqaz" nəşriyyatı, 2007, 184 s.; Çəmənzəminli Y.M. Xarici siyasətimiz.Bakı:"Azərnəşr",1993, 51 s.

öyrənilməsi və təhlili; dialektik metod və sistem yanaşma, yəni ermənilərin pozucu əməllərinin bölgənin inteqrasiyasına göstərdiyi neqativ təsirin, eləcə də erməni milli maraqlarının bütövlükdə ətraf dövlətlər və xalqlar üçün yaratdığı problemlərin öyrənilməsi tədqiqat işinin nəzəri metodoloji əsasıdır.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiyada tarixşünaslıqda ilk dəfə olaraq "Qafqaz Birliyi ideyasının iflasa uğramasında erməni amilinin rolu (1917-1920)" problemi kompleks şəkildə ayrıca tədqiqat işi kimi elmi nəzəri cəhətdən ətraflı tədqiq olunmuşdur. Dissertasiyada mövzunun tədqiqi ilə əlaqədar aşağıdakı yeniliklər əldə edilmişdir:

**-** Qafqaz Birliyi ideyasının iflasa uğramasında erməni amili, mövcud ideyaya Rusiyanın, Türkiyənin və Qərb dövlətlərinin münasibətinə aydınlıq gətirilmişdir.

-dövlət arxivlərinin fondlarından və 1917-1920-ci illərə aid dövri mətbuatdan yeni sənəd və materialları aşkar edilərək elmi dövriyyəyə cəlb edilmişdir.

- Qafqaz Birliyi ideyasının meydana gəlməsi, ideyanın gerçəkləşməsini hədəf götürən siyasi təşkilatların və birliklərin yaradılması, bölgədə ilk siyasi qurumların formalaşdırılması kompleks şəkildə araşdırılaraq təhlil edilmişdir.

- Yeni sənədlər, mənbə və mövcud ədəbiyyatlar əsasında Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində erməni fitnəkarlığının qarşısını almaq cəhdlərini araşdırılmışdır.

- Qafqaz xalqlarının Aprel istilasından sonra və Qafqaz Birliyi ideyası hər dəfə gündəmə gəldiyi zaman ərzində ermənilərin bu birlikləri pozmaq cəhdlərinin öyrənilməsi yenidir.

- Qafqaz Birliyi ideyasının gerçəkləşməsi yolunda erməni amilindən başqa mövcud olan digər manelələr də araşdırılmış və təhlil edilmişdir.

- Qafqaz Birliyinin bölgə xalqları üçün, onların gələcəyi üçün doğura biləcəyi əhəmiyyət göstərilmiş, birlik ideyasının reallaşması yolları göstərilmiş və təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada verilən ümumiləşdirmələr, çıxarılan nəticələr bir sıra fəaliyyətdə elmi-nəzəri baza qismində istifadə oluna bilər;

-Tədqiqatın əsas müddəaları və nəticələrindən vətən tarixinə, eyni zamanda siyasi elmlərə dair tədqiqat işlərinin yazılmasında dərslik, dərs vəsaiti, monoqrafiya və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında;



-elmi-pedaqoji fəaliyyətdə, ali məktəblərdə tarix, regionşünaslıq, beynəlxalq münasibətlər ixtisasları üzrə mütəxəssislərin hazırlanmasında, buraxılış və magistr işlərinin yazılmasında istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin "İctimai Elmlər" kafedrasında hazırlanmış, iki dəfə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. Tədqiqatın əsas müddəaları bir sıra elmi jurnallarda, respublika və beynəlxalq elmi-praktiki konfrans materiallarında, Bakıda və xaricdə dərc etdirdiyi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** araşdırılan mövzunun aktuallığı əsaslandırılıb, problemin öyrənilmə səviyyəsi, mənbəşünaslıq bazası, metodoloji əsasları, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilib, mövzunun elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilib.

Dissertasiyanın birinci fəsli **"Qafqaz birliyi ideyasının meydana gəlməsinin ilkin mərhələsi"** adlanır. Bu fəslin **"Qafqaz Birliyi ideyasının yaranmasını zəruri edən şərtlər, bölgə xalqlarının ilk birlik təşəbbüsləri"** adlanan birinci yarımfəslində Qafqazın geosaysəti, etnoqrafiyası, coğrafiyası haqqında yığcam məlumat verilir, bölgə uğrunda böyük dövlətlər arasında tarixən mövcud olan münaqişələrin səbəblərinə aydınlıq gətirilir. Göstərilir ki, Qafqaz Rusiya tərəfindən işğal olunduqdan sonra ilk dəfə birlik ideyası meydana gəlir. Çünki bölgənin kiçik, lakin çoxsaylı xalqları belə qənaətə gəlir ki, güclü və qəddar düşmənə qarşı ancaq bir yerdə vuruşmaqla azadlığa nail olmaq mümkündür. Bu yarımfəsildə Qafqaz ziyalılarının, ictimai-siyasi xadimlərin yaratdıqları ilk birlik təşkilatları və ilk birləşmə təşəbbüsləri haqqında da ətraflı məlumat verillir.

Xronoloji baxımdan 1916-1917-ci illəri əhatə edən bu yarımfəslin yekun təhlili göstərir ki, müharibənin getdiyi bir şəraitdə Qafqazda bir-birinə zidd iki maraq qarşı-qarşıya gəlmişdi. Bir tərəfdəki mütləq əksəriyyət Rusiya imperiyasının dağılmasına, onun yerində azad Qafqaz birliyinin formalaşmasına çalışır, digər tərəfdəki azlıq, lakin kifayət qədər aqressiv və mütəşəkkil qüvvə olan ermənilər Rusiya imperiyasının öz varlığını qorumasına yardım edir, Qafqaz Birliyi ideyasından uzaqda